# Azərbaycanın Baş naziri Türkiyənin vitse-prezidentini Füzuli Beynəlxalq Hava Limanında qarşılayıb





Noyabrın 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktayı Füzuli Beynəlxalq Hava Limanında qarşılayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olduqdan sonra Azərbaycanın Baş naziri və Türkiyənin vitse-prezidenti Şuşa şəhərinə yola düşüblər.




Azərbaycan. - 2022.-6 noyabr.- S.3.